# UNUDULMUŞ ALICLI ALİMLƏR

**Nailə Süleymanova**
AMEA Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı,
ilahiyyat üzrə fəlsəfə doktoru, dosent
**E-mail: dr_naile@yahoo.com**

Tarix boyunca Azərbaycanda müxtəlif elm sahələrini təmsil edən alimlər yaşamış, xalqın mədəniyyət və maarifi ilə bağlı elm sahələri ilə məşğul olmuş və yazdıqları əsərlərlə dünya elm tarixinə layiqli töhfələr vermişlər. Təəsüf ki, bu günə qədər onlar arasında istər həyatı, istərsə də yaradıcılıqları tədqiqata cəlb edilməyənlər var. Mənbələrdə ya çox az, ya da heç bir məlumata rast gəlinməyən belə dühaların yaşadıqları bölgələrdə və AEMA Füzuli adına Əlyazmalar İnstitutunda elmi irsinin əlyazma nüsxələri mühafizə olunur. Bu məqalədə Quba rayonunun Alıc kəndinin unudulmuş alimləri haqqında, əsərlərinin əlyazma nüsxələrindən əsas mənbə kimi bəhrələnməklə məlumat verəcəyik.

Alıc, Quba rayonunun Qaraçay sahilində Amsar bələdiyyəsinin inzibati ərazi vahidində yerləşən bir kənddir. Bu kənd tarixi Qulhan mahalına aid olduğu üçün araşdırdığımız alimlər Alıcı nisbəsi ilə bərabər, Qulhani nisbəsindən də istifadə etmişlər. Qulhan mahal kimi müasir dövrdə bölgənin coğrafi adı kimi istifadə edilmir. Lakin buna baxmayaraq bir çox tarixi və ensiklopedik mənbələrdə bu mahalın adına rast gəldik. Klassik dövr alimlərindən İ.Munşinin "Tarix-i Aləmara-yi Abbasi" (6;669 ) və A.Bakıxanovun "Gülüstani İrəm" (2 ; 99,154) adlı əsərlərində olduğu kimi dövrümüzün tarixçilərindən T.Mustafazadənin "Quba xanlığı" ( 5; 7) kitabından öyrəndik ki, Quba xanlığı yarımmüstəqil inzibati ərazi vahidi olduğu dövrdə (XVII əsrin sonu) bu əraziyə Cənubda yerləşən Gulhan da daxil idi. Bundan başqa Gülhan ərazi ismi kimi, fransız dilində tərtib edilən Şirvan və Xəzəryani ölkələr xəritəsində qeyd edilmişdir (9;3).

Bu tədqiqatın başlanmasına səbəb ilk alıclı alim Məhəmməd bin İbrahim bin əl-Hac əl-Çələbi əl-Alıcı əl-Qulhanidir. Alıcı və Qulhani nisbəsi ilə yazmış digər alimlər isə onun nəslinin nümayəndələri olmuşdur. Məhəmməd əl-Alıcı əl-Qulhani haqqında Abbasqulu Ağa Bakıxanov (1794-1847) "Gülüstani İrəm " əsərində məlumat verib. Onun dövrünün böyük elmi şəxsiyyətlərindən biri olduğunu və fiqhi məsələlərə dair "Tədvin əl-Alıcı" adlı əsərinin mövcudluğunu bildirir. Yeddi dəfə Məkkədə olan Məhəmməd əl-Alıcı 1808-ci ildə vəfat etmiş və Quba şəhərində "Sultan Baba Rüstəm" qəbirstanlığında dəfn olunmuşdur (2, 203). Alimin məzarı bu günə qədər mühafizə edilib. Onunm məzarının yanında Alıcı nisbəsi ilə daha dörd nəfərin qəbri vardır. Bu məzarlar onun qardaşları Hacı Mahmud əl-Çələbi əl-Alıcı, Hacı Əhməd əl-Çələbi əl-Alıcı və onların oğulları Əbdürrəhim Əfəndi əl-Çələbi əl-Alıcı ilə uzun illər Qubada qazı olan İsa Əfəndi əl-Çələbi əl-Alıcınındır. Alimin şəcərəsi haqqında digər məlumatı onun



müəllifi olduğu əlyazma əsərin nüsxələrinin birində qarşılaşdıq. Belə ki, əlyazmada ailə şəcərəsi Nəsrullah bin əl-Hacı İsmayıl əl-Əfəndi bin əl-Hacı Çələbi əl-Əfəndi bin əl-Hacı İbrahim əl-Əfəndi bin əl-Hacı Nemətullah əl-Əfəndi əl-Alıcı əl-Qulhani kimi yazılmışdır. Şəcərədən aydınlaşır ki, Məhəmməd əl-Alıcı əl-Qulhaninin atasının adı İbrahim Əfəndi, babasının adı Nemətullah Əfəndi, oğlunun adı İsmayıl Əfəndi və nəvəsi isə Nəsrullah Əfəndidir. Alıc kəndinə ezamiyyət zamanı alimin həmçinin Hacı İbrahim Əfəndi, Hacı Əsədullah Əfəndi və Hacı Seyfullah Əfəndi adlı oğullarının da olduğunu öyrəndik. Məhəmməd əl-Alıcı əl-Qulhaninin bir qızının da olduğu barədə deyilsə də, hal-hazırda Alıcda onun adını bilən yoxdur.

Məhəmməd bin İbrahim bin əl-Hac əl-Çələbi əl-Alıcı əl-Qulhanini hayatına dair məlumatlar müasir mənbələrdə bəzi istisnalarla demək olar ki, Bakıxanovun əsərindəki məlumatların təkrarıdır. Belə mənbələrdən biri Firudin bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" adlı əsəridir. Əsərdə "Məhəmməd Çələbi Alıclı Qübbə nahiyəsində öz əsrinin bilikli və gözüaçıq alimlərindən sayılırmış" və onun "şəriət elmində əmsalı olmadığı" bildirilir. (8,118) Digər mənbə isə Nəzir əd-Durgəlinin "Nüzhət əl-əzhən" əsəridir (8, 64). Əd-Durgəli əsərində Məhəmməd əl-Alıcı ilə bərabər onun atası İbrahim bin Hacı əl-Çələbi haqqında da məlumat verib. Bu məlumata görə atası çox səyahət etmiş, Dəməşqdə Əbdülkərim əd-Dağıstani və Mədinədə şeyx müfti Məhəmməd əl-Mədənidən dərs almışdır (8,64).

Məhəmməd bin İbrahim bin Hacı əl-Çələbi əl-Alıcı əl-Qulhaninin yaradıcılığına gəldikdə isə, yazdığı müxtəlif məzmunlu əsərlər əlyazma şəklində Füzuli adına Əlyazmalar İnstitutunda, alimin yaşadığı Quba şəhərində və Qubanın Alıc kəndində şəxsi kitabxanalarda mühafizə olunur. Həmin əlyazmalar Qubanın müxtəlif kəndlərində köçürülmüş və səkkiz məcmuəyə fərqli sayda daxil edilmişdir. Onların tədqiqi zamanı çox hissəsinin fiqhə dairliyini müəyyənləşdirdik. Həcmləri fərqli bu əlyazmalar daha çox ərəb, az hissəsi isə türk dilində yazılıb. İlk öncə alimin mənsub olduğu şafii fiqhinə, sonra isə digər elmi sahələrə aid əsərləri tədqiq edildi. Məhəmməd bin İbrahim bin əl-Hacı əl-Çələbi əl-Alıcı əl-Qulhaninin şafii fiqhi üzrə mühüm əsərlərindən biri "Təzkirat əl-ixvan"dır. Bu əsər ərəb dilində yazılıb və şafii fiqhinin istilahlarından açılır. Əsərdə müəllif şafii fiqhinin məşhur alimi İbn Həcər Heytəminin (v.974/1567) "Tuhfət əl-muhtac bi` şərh əl-minhəc" adlı əsərindən fiqh istilahları toplamış və şərhini vermişdir. Kiçik həcmli (9 v.) risalənin tam mətnli beş nüsxəsi Əlyazmalar İnstitutunda qorunur. Hər dörd nüsxənin xətti aydın olub, XIX əsrin birinci yarısında köçürülüb. Bu əsərin nüsxələrindən biri Məhəmməd əl-Alıcının nəvəsi Nəsrullah bin İsmail əl-Alıcı tərəfindən 1820-ci ildə köçürülmüşdür. Nüsxədə əsərin 1778-ci ildə təlif edildiyi haqqında məlumat da qeyd olunmuşdur. "Müxtəsər fi əl-fiqh" şafii fiqhinə dair ərəb dilində yazılmış kiçik həcmli (5 v.) əsər olub, 1888-ci ildə Qubada Tacəddin Əfəndi tərəfindən köçürülüb. Əsərdə müəllif şafii fiqhinə görə iman, təharət, namaz, oruc, zəkat və s. mövzulara aid hökmləri ona verilən suallara cavab olaraq izah etmişdir. Əlyazmanı köçürmüş Tacəddin Əfəndinin nisbəsindən Alıcdan olduğu aydınlaşır. Lakin Məhəmməd əl-Alıcı əl-Gulhani ilə aralarında hansı qohumluq bağlarını müəyyən edə bilmədik. Alimin "Müxtəsər fi əl-fiqh" adlanan digər risalələrində də şafii fiqhinə dair fətvalar toplanmış və fərqli məcmualara daxil edilmişdir. Məhəmməd əl-Alıcı əl-Gulhaninin "əl-Əcvabə əl-əsələt əl-müxtəlifət əş-şəriyyət" adlı ərəb dilində yazılmış əsərində isə şafii fiqhinə görə nigah, talaq, nafaqa və s. mövzulara aid hökmlər verilən suallara cavab kimi izahlanıb. Əsər kiçik həcmli (10 v.) olub, Nur Məhəmməd bin Fəthullah tərəfindən Qubanın Növdün kəndində 1842-ci ildə köçürülmüşdür. Bu əsərlə bərabər məcmuəyə Şafii hüququna dair İbn Həcər əl-Heysəminin "əl-Fətavi əl-fiqhiyyə" və Məhəmməd əl-Ayməkinin "Bəzil əl-fətavi" əsərləri də daxil edilib. Alimin eyni adlı, lakin fərqli suallara cavab olaraq, ərəb dilində yazılmış digər bir əlyazması da (10 v.) vardır. "Fətavi" adlı risalə (8 v.) isə ərəb dilində yazılmış müxtəlif fiqhi məsələlərə dair İbn Həcər Asqalaninin kitabından sual-cavab şəklində fətvalardan ibarət risalədir. Müəllifin həmçinin eyni adlı şafii fiqhinə dair sual-cavab şəklində bir neçə səhifəlik risalələri də vardır. Məsələn, bu risalələrin birində Dağıstan alimlərinin suallarına cavablar toplanmış, digərində isə müxtəlif suallara cavab olaraq iman haqqında fətvalar yazılmışdır. "Risalət əl-qüdüs" ərəb dilində qələmə alınmış kiçik həcmli (10 v.) şafii fiqhinə dair risalə olub, 1814-cü ildə İbn Şeyx Səfər Əli bin Şeyx Mürşid bin Şeyx Əli bəy tərəfindən köçürülüb. Risalənin yazılma tarixinin 1799-cu il olduğu haqqında katib məlumat vermişdir. "Risalət əl-keyfiyyət" adlı əsər isə şafii fiqhinə dair türk dilində yazılmış (18 v.) əsərdir, müəllif bir sıra fiqhi hökmləri izah edib.

Məhəmməd bin İbrahim bin əl-Hacı əl-Çələbi əl-Alıcı əl-Qulhaninin fiqh mövzusundan əlavə, digər məzmunlu əsərləri də vardır. Onun Quran elmlərinə dair "əl-İrşad əl-ənam" adlı ərəb dilində yazılmış bir risaləsi (16 v.) vardır ki, 1806-cı ildə Qubada köçürülmüşdür. Nusxədə risalənin 1805-ci ildə yazıldığı haqqında qeyd var. Həm məzmun, həm də nüsxə baxımından yeganə əsər olan risalənin ilk vərəqində Məhəmməd əl-Alıcı Qurani-Kərim surələrini nazilolma sırasına görə tərtibləyərək cədvəl şəklində əlyazmaya daxil etmişdir. "Şərh qəsidət əl-Dimyatiyyə" adlı ərəb dilində yazılmış risalə ( 9 v.) Şəmsəddin Məhəmməd bin Əhməd əl-Vaiz əl-Dimyatinin (v. 1515) Allahın gözəl isimlərindən bəhs edən qəsidəsinin şərhidir. Bu risalə də tədqiq etdiyimiz əlyazma əsərlər arasında yeganə nüsxədir. Alimin türk dilində yazdığı digər əsər "Təcvid" adlı kiçikhəcmli risalə (9 v.) olub, ərəb əlifbasının hərflərinin sifət və məxrəclərindən bəhs edir. Qubada köçürülən və iki nüsxəsi olan bu əsərin əlyazma nüsxələrindən biri 1876-ci ildə Şeyx Davud tərəfindən köçürülmüşdür.



Alıcın digər məşhur alimi Məhəmməd əl-Alıcının oğlu İsmayıl bin Məhəmməd əl-Çələbi əl-Alıcıdır. Onun həyatı haqqında heç bir mənbədə məlumat tapa bilmədik. O, təqribən XVIII əsrin sonu, XIX əsrin ortalarına qədər Quba rayonun Alıc kəndində yaşamışdır. Mühafizə edilmiş əsərlərindən, xüsusilə də şafii hüququna dair yazdıqlarından mükəmməl təhsilə malik olduğu aydınlaşır. İsmayıl əl-Alıcının əsərlərinin nüsxələri Azərbaycanın müxtəlif bölgələrində köçürülmüşdür. Bu isə onun bir alim olaraq məşhurluğunu göstərir. Yazdığı əsərlər nəzərə alınarsa, fiqh sahəsində, xüsusilə də fəraizə dair əsərləri daha çoxdur. AMEA Füzuli adına Əlyazmalar İnstitutunda İsmayıl bin Məhəmməd əl-Alıcının əl-Qulhaninin Qutqaşen (Qəbələ) rayonunun Həmzəli kəndində yaşamış İsmayıl bin Nağı bin Rza bin İmamqulu Həmzəli tərəfindən 1775-ci köçürülmüş və bir məcmuəyə toplanmış əsərləri muhafizə edilir. Məcmuəyə daxil edilən əsərlərdən biri alimin "Fəraiz İsmaliyyə" adlı risaləsi şafii fiqhinin fəraiz bölümü mövzusunda ərəb dilində yazılıb (10 v.). Risalənin dərkənarında əsərin mətninə şərhlər də qeyd olunmuşdur. Digər bir əsər isə "Kitab cədid fi ilm əl-fiqh" adı ilə şafii hüququna dair ərəb dilində (78

v.) qələmə alınıb. Əsərdə şafii fiqhinin təharət, namaz, oruc və s. mövzulara dair fətvaları toplanmışdır. "Kitab əl-müxtəsər min kitab əl-fiqh" də şafii fiqhinə dair ərəb dilində yazılmış (32 v.) əsər olub, fiqhin müxtəlif hökmləri daxil edilmişdir.

Vurğulanan məcmuədən başqa İsmayıl əl-Alıcının əsərləri digər toplulara da daxil edilmişdir. Bu əsərlərdən "əl-Qaidət əl-İsmailiyyə fi ilm əl-fəraiz" ərəb dilində yazılmış (30 v.) Qubada Digah kəndində Həsən Əfəndi mədrəsəsində 1858-ci ildə köçürülmüşdür. Şafii fiqhinin fəraiz bölümünə aid əsərdir. İsmayıl əl-Alıcının əsərlərinin nüsxələri həmçinin Quba şəhərində də şəxsi kitabxanalarda saxlanılır. İsmayıl əl-Alıcının Quba şəhərində mühafizə edilən ərəb dilində 1836-cı ildə köçürülən "ər-Risalət əqaid əs-sələf əs-salihin" adlı əqaidə dair əsərinə rast gəldik. Müəllif həyatda ikən köçürülmüş bu əsərin nüsxələrinə nə Əlyazmalar İnstitutunda, nə də başqa kitabxanalarda rast gəldik. Məhəmməd əl-Alıcının oğlu İbrahim əl-Alıcının əsərlərinə hələ ki, tədqiqat zamanı təsadüf olunur, lakin buna baxmayaraq onun da təhsilli olduğu və tədris ilə məşğulluğu haqqında məlumat vardır. Bir əlyazma mənbədə onun Nəqşibəndi təriqətinin mürşidi Məhəmməd əl-Yarağiyə (v.1838) icazətnamə verdiyi deyilir.

Əbdürrəhim bin Musa bin İbrahim əl-Alıcı təqribən XIX əsrin ikinci yarısından XX əsrin əvvəllərinə qədər yaşamışdır. Məhəmməd bin İbrahim əl-Alıcının qardaşının nəvəsidir. Onun haqqında ailə üzvlərindən aldığımız şifahi məlumata görə 30 il Quba cümə məscidində imamlıq etmiş və həmçinin dərs demişdir. Alimin Qubada mühafizə edilən iki avtoqraf əsərinə rast gəldik. 1907-ci ildə qələmə alınmış əlyazmalarda müxtəlif məzmunlu fətvalar və hədislər toplanmışdır. Əbdürrəhim əl-Alıcının oğlu Əhməd bin Əbdürrəhim bin Musa bin İbrahim Hafid əl-Alici haqqında da ancaq şifahi olaraq məlumat toplaya bildik. Bu alimin 1962-ci ildə Əhməd bin Sadiq tərəfindən köçürülmüş "Məcmuə əl-vaiz" adlı ərəb dilində yazılmış əsəri (43 v.) Əlyazmalar İnstitutunda mühafizə edilir. Əsərdə müxtəlif məzmunlu xütbələr və fətvalar toplanıb. Həmçinin Əlyazmalar İnstitutunda onun şəxsi kitabxanasından olan başqa müəlliflərin iki əlyazma əsəri də qorunmaqdadır. Əlyazmaların ilk vərəqlərində alimin xətti ilə adı yazılmış və tarix qoyulmuşdur. Əhməd əl-Alıcı təqribən XX əsrin ortalarına qədər yaşayıb və Məhəmməd əl-Alıcının nəslinin hələ ki, son alim nümayəndəsidir.

Alıcı nisbəsi ilə yazan alimlərdən biri Tacəddin Əfəndi bin Rahmətullah Əfəndi əl-Alıcı əl-Qulhanidir. Tacəddin Əfəndinin Əlyazmalar İnstitutunda şafii fiqhinə dair "Şərait əl-islam min müxtəsər ibn Həcər " adlı ərəb dilində yazılmış risaləsi (243v.) mühafizə edilir. Bu risalə İbn Həcər əl-Asqalaninin (v.1449) "Kitab əl-fiqh" əsərinə yazdığı müxtəsər fiqh əsəridir. Əsər aftoqraf olub, Quba şəhərində 1888-ci ildə yazılıb. Əlyazmanın son vərəqində Tacəddin Əfəndi öz şəxsi möhürünü basmışdır. Bu alimin Məhəmməd əl-Alıcı ilə qohumluq bağını müəyyən edə bilməsək də, Alıcdan olduğu və yazdığı əsərdən mükəmməl təhsil aldığı aydındır. Həmçinin Tacəddin Əfəndi əvvəldə məlumat verdiyimiz kimi, Məhəmməd əl-Alıcının "Müxtəsər fi əl-fiqh" əsərinin katibi olmuşdur.

Beləliklə, biz bu məqalədə unudulmuş Alıc alimlərinin xatırlanması üçün onların elmi yaradıcılığının töhfəsi olan əsərlərinin əlyazma nüsxələrindən və bilindiyi qədər həyatlarından bəhs etdik. Elmlə bərabər, tədrislə də məşğul olan alıclı alimlər haqqında bu, ilk araşdırmadır. Lakin, inanırıq ki, daha böyük tədqiqatlar üçün zəmin olacaq və Alıc alimlərinin dünya elm tarixinə verdikləri zəngin elmi irs əsaslı öyrəniləcəkdir. ❖


**Ədəbiyyat:**

Azərbaycan dilində

1. ASE, III cild. Bakı, 1979
2. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1991
3. Vəlixanlı N.M. IX-XII əsr ərəb cöğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974
4. Fəlsəfə. Ensiklopedik lüğət. Bakı, 1997
5. Mustafazadə T. Quba xanlığı. Bakı, 2005
6. Munşi İsgəndər bəy Türkman. Tarix-i Aləmara-yi Abbasi.(tər. Əfəndiyev O., Musalı N.) Bakı, 2009
7. İbişov S.Ə. Quba xanlığı :Əhali tarixi və azadlıq mücadiləsi. Bakı, 2012

**Rus dilində**

8. Назир ад-Дургели. Услада умов в биографиях дагестанских ученых. Moskva, 2012.

**Fransız dilində**

9. Charte von der Graenz-Scheidung in Schirwan. Bibliotheque nationale de France



**Резюме**

Наиля Сулейманова,

ЗАБЫТЫЕ УЧЕНЫЕ АЛИЧ

Автор статьи знакомит читателей с достойными, но не широко известными учёными родом из села Алич Губинского района. Рукописи их научного наследия хранятся либо в регионах, где эти учёные жили, либо в Институте Рукописей НАНА имени М.Физули. Именно рукописные копии этих работ и послужили основным источником статьи.

**Ключевые слова:** древний, произведение, копия, рукопись

**Summary**

Nailya Suleimanova,

FORGOTTEN SCIENTISTS FROM ALICH

The author of the article introduces readers with worthy, but not widely known scientists from the village of Alich, Guba region. The manuscripts of their scientific heritage are kept either in the regions where these scientists lived or in the Institute of Manuscripts named after M. Fizuli. It was handwritten copies of these works that served as the main source of the article.

**Key words:** ancient, work, copy, manuscript